

# Əbədi Qurtuluş simvolu

**Hər il dekabrın 12-də xalqımız şanlı tarix yaradan, zamanın çətin sınaqlarına mətin iradəsi ilə sinə gərən dahi Lider Heydər Əliyevi minnətdarlıq hissi ilə anır. Misilsiz xidmətləri ilə xalqın böyük etimad və məhəbbətini qazanmış Ulu Öndərin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir.**

Bu gün dünyada öz imzası ilə seçilən qüdrətli Azərbaycan məhz Heydər Əliyevin siyasi liderliyi ilə həqiqi müstəqilliyinə qovuşmuş müasir dövlətdir. Xalqın təkidi ilə 1993-cü ildə hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyev Azərbaycanı hüquqi və siyasi-iqtisadi suveren dövlət prinsiplərinə əsaslanaraq uğurla irəliyə aparmağa müvəffəq oldu. Onun rəhbərliyi altında ölkənin sürətli sosial-iqtisadi yüksəlişi, təhlükəsizliyi, ictimai sabitliyinin təmin edilməsi ilə cəmiyyətin demokratik əsaslarla inkişafı üçün lazımi mühit formalaşdı.

Müasir Azərbaycan tarixində cəmiyyətin inklüziv inkişafı üçün bir çox yeni sahənin yaranması və tərəqqisi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin hələ 1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və görülən strateji tədbirlərin fonunda ölkəmiz sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrilmişdi. Xüsusi vurğulanmalıdır ki, milli-ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Ulu Öndər Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-nin rəsmi dövlət dilidir" maddəsi daxil edildi.

1990-cı il Azərbaycan xalqının tarixində ağır, çətin bir dövr oldu. Erməni işğalı, qaçqın seli, iqtisadi tənəzzül, siyasi böhran, ən acınacaqlısı isə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi ilə üz-üzə qalan xalq ölüm-dirim mübarizəsinə qalxdı. Belə bir məsuliyyətli və çətin dönəmdə bir qrup Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi.

Xalqın israrlı tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilərək iyunun 24-dən Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonrakı dövrdə isə Azərbaycanın inkişaf və tərəqqi dövrü başlandı. Həmin çətin dövrdə müasir Azərbaycanın dövlətçilik ənənələrinin əsası qoyuldu, xalq öz lideri ətrafında birləşdi, millətin ümid yeri Heydər Əliyev oldu.

Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkənin ictimai həyatında fərqli bir dövr başladı. 1994-cü ilin sentyabrın 20-də Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dünya iqtisadiyyatında yer tutması üçün zəruri zəmini formalaşdırdı.

1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsidir. Qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı həyata keçirilən ilk tədbirlər və hazırlanan dövlət proqramları bilavasitə Ulu Öndər Heydər Əliyevin gərgin əməyinin nəticəsidir. Ümummilli Liderin dövlət siyasətində ordu quruculuğu, milli mətbuatın inkişafı, Azərbaycan dilinin qorunması kimi amillər başlıca istiqamətlər oldu.

Bütün bunların fövqündə Ulu Öndərin ən ali arzusu Azərbaycan torpaqlarını işğaldan azad etmək idi. Onun xalq qarşısında misilsiz xidmətləri çoxdur, lakin Azərbaycan üçün ən böyük xidməti özündən sonra xalqımıza bəxş etdiyi siyasi varisidir.

Heydər Əliyev prinsiplərinə sədaqəti ilə xalqımızı tarixi Zəfərə qovuşduran Prezident İlham Əliyev Ulu Öndərin arzularını gerçəkləşdirməklə yeni dövlətçilik ənənəsini də yaratdı. İndi xalqımız məğrur, qalib və məsuddur. Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları isə hər bir azərbaycanlının gələcəyini hələ uzun onilliklər nura qərq edəcək.

Bu gün Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiram və minnətdarlıqla yad edir. Onun Azərbaycan uğrunda gördüyü işlər, ölkəmizin inkişafı, bütövlüyü üçün həsr etdiyi ömrü bir örnək, bir nümunədir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq!

**Sevil MİKAYILOVA,**
***Milli Məclisin deputatı***